


*Əzizinəm Qarabağ,*
*Şəki, Şirvan, Qarabağ,*
*Dünya cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*

*Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsində neçə-neçə yurd-yuvalar boşaldı, evlər-eşiklər viran oldu, kəndlər-şəhərlər dağıldı, günahsız insanların qanı töküldü.*

# «Yaddan çıxmaz Qarabağ»

Azərbaycanda musiqimizin, mədəniyyətimizin, incəsənətimizin, muğamlarımızın beşiyi olan Qarabağ torpağı neçə ildir ki, mənfur düşmənlərin işğalı altındadır, Cıdır düzü dərdə-qəmə batıb, Topxana meşəsi sükuta dalıb, Qırxqız yaylağı qan ağlayır, İsa bulağı kədərdə çağlayır, Şuşanın dağları başı dumanlıdır. Seyidin, Cabbarın, Zülfünün, Xanın, Rəşidin, Bülbülün, Üzeyirin, Zakirin, Natəvanın narahat ruhları bu torpağın başı üzərində gəzib-dolaşır. Şəhidlərimizin müqəddəs ruhları bizi qisasa, intiqama çağırır.

Qarabağ Azərbaycanın ürəyidir. Qarabağ üzükdürsə, Şuşa onun qaşıdır. «Şuşasız Azərbaycan yoxdur». (H.Əliyev).

Qazaxdan Qarabağa gedib, İbrahim xana vəzirlik eyləyən, Azərbaycan ədəbiyyatında realist poeziyanın banisi, böyük söz sərrafı, gözəllik aşiqi və məhəbbət şairi Molla Pənah Vaqifin məqbərəsinin də başqa mədəniyyət abidələrimiz kimi başına nələr gətirildiyini təsəvvür etmək çətin deyildir.

Vaxt gələcək ermənilər Qarabağ torpağından – Şuşadan Ağa Məhəmməd Şah Qacar kimi öz başlarını qoyub qaçacaqlar.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü və rəhbərliyi ilə təşkil olunan «Yaddan çıxmaz Qarabağ» adlı ümumrespublika mədəni-siyasi aksiyası – İncəsənət həftəsi respublikanın başqa bölgələrində olduğu kimi Qazaxda da böyük əks-səda doğurmuşdur. Rayon Mədəniyyət və Turizm Şöbəsi də bu mövzuda silsilə tədbirlər planı hazırlayıb həyata keçirmişdir.

Bu gün Azərbaycan sosial-iqtisadi cəhətdən inkişaf yollarındadır, respublikamız günügündən tərəqqi edir. Geniş miqyasda tikinti-abadlıq, mədəni quruculuq işləri aparılır. Yeni iş yerləri açılır. Beynəlxalq arenada Azərbaycanın nüfuzu günü-gündən artır. Möhtərəm Prezidentimiz İlham Əliyev Qarabağ probleminin həlli yolunda önəmli işlər görür. Gec-tez qələbə bizimlədir. İndi Ali Baş Komandanımız İlham Əliyev başda olmaqla güclü və qüdrətli Ordumuz vardır.

Arzum budur ki, Qələbəni Cıdır düzündə bayram edək, M.P.Vaqifin anadan olmasının 290 illik yubileyini Şuşada keçirək, «Qarabağ şikəstəsini» dinləyək, Xankəndinin üzərində Azərbaycanın aylı-ulduzlu, üç rəngli bayrağını dalğalanan görək! Yəqin ki, o gün uzaqda deyil.

**Kazım KAZIMLI**